**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**UĞUR ARİF ERDOĞAN OĞLU BÖLEK**

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA İNVESTİSİYA ƏMƏKDAŞLIĞININ İNKİŞAFI PROBLEMLƏRİ

**5310.01- "Dünya iqtisadiyyatı"**

**İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I – 2014**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynelxalq iqtisadi münasibətlər» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **Şəmsəddin Hümmət oğlu Hacıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **Hacıağa Baxış oğlu Rüstembeyov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Müzəffər Qulu oğlu Məmmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu

Dissertasiyanın müdafiəsi « 28 » Mart 2014 il saat 14.00 da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat « » Fevral 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d.** **dos.Z.İ.Mustafayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Qloballaşma proseslərinin gücləndiyi müasir dövrdə yalnız daxili imkanlara və yerli bazara əsaslanmaqla iqtisadi inkişafa nail olmaq imkanları məhduddur. Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrə iqtisadiyyatlarının ixtisaslaşma səviyyəsini yüksəltmək hesabına malik olduğu iqtisadi resurslardan daha səmərəli istifadə etməyə və bununla da daha yüksək inkişaf səviyyəsinə nail olmağa imkanlar yaradır. Bununla belə, iki ölkə arasında iqtisadi əlaqələrin formalaşması və inkişafı formalaşmış tarixi əlaqələrdən, dil və adət-ənənənlərin yaxınlığından, milli iqtisadiyyatların strukturundan və digər amillərdən asılıdır. Bu baxımdan, Azərbaycanın ayrı-ayrı ölkələrlə əlaqələrinin formalaşmasına bu amillərin hər biri təsir göstərməklə ölkələrarası əməkdaşlığın inkişaf səviyyəsini müəyyən edir. Buna görə də, Azərbaycanın ayrı-ayrı ölkələrlə iqtisadi əlaqələrinin formalaşmasının ümumi xüsusiyyətləri ilə yanaşı, spesfik cəhətlərinin də öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Milli iqtisadiyyatın inkişafında investisyanın həcmi və strukturu əhəmiyyətli rol oynayır. İqtisadi artımın Keynis nəzəriyyəsinə (Xarrod-Domar modeli) əsasən investisiya iqtisadi artımı müəyyən edən həlledici amil hesab edilir. Sonrakı araşdırmalar investisyanın həcminin iqtisadi artımı müəyyən edən yeganə amil olmadığını müəyyən etsə də (məsələn, Solou modeli), bu amil iqtisadi artımın əsas determinantlarından biridir. Yəni ölkədə investisiya qoyuluşlarının artırılması iqtisadi artıma müsbət təsir göstərir. Bu baxımdan, ölkədə investisyanın həcminin artırılması və onun strukturunun təkmilləşdirilməsinin mühüm əhəmiyyəti vardır. Belə şəraitdə ölkəyə xarici investisiyanın cəlb edilməsinin stimullaşdırılması məqsədə uyğundur. Bir çox hallarda xarici investisiyanın cəlb edilməsi investisya qoyuluşlarının maliyyələşdirilməsi mənbələrinin artırılmasına səbəb olur. Bununla yanaşı xarici investisiya axınları həm də yeni texnologiyanın, idarəetmə metodlarının, istehsalın təşkili sahəsində yeni biliklərin ölkəyə cəlb edilməsi üsulu kimi çı-

xış edir. Bu baxımdan, ayrı-ayrı ölkələrlə Azərbaycanın investisiya əməkdaşlığının inkişaf imkanlarının öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Türkiyə Azərbaycanın əsas tərəfdaş ölkələrindən biridir. Bu iki ölkə arasında dil, din və adət və ənənələrdə yaxınlıq, tarixən dostluq münasibətlərinin olması onlar arasında iqtisadi əməkdaşlıq üçün əlverişli şərait yaradır. Bununla belə, bu əməkdaşlığın mövcud səviyyəsinin araşdırılması, bu sahədə imkanların qiymətləndirilməsi və iqtisadi əməkdaşlığın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi Azərbaycanın xarici iqtisadi siyasətinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyətə malikdir.

Hazırda Azərbaycan ilə Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf etdirilməsi ön plana çıxır. Son illərin təcrübəsi göstərir ki, kapital axını idxal-ixrac əməliyyatlarını əvəz etmir, onu tamamlayır. Bu baxımdan, Türkiyənin MDB ölkələri ilə xarici iqtisadi əlaqələrinin genişləndirilməsində Azərbaycan mühüm rol oynaya bilər. Həmçinin, Azərbaycanda neft gəlirlərinin artması qeyri-neft sahələrinin inkişaf etdirilməsi sahəsində uzunmüddətli tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Belə halda türk şirkətləri Azərbaycanda birbaşa investisiya qoyuluşlarını artırmaqla qeyri-neft sahələrinin inkişafında aktiv iştirak edə bilərlər. Qeyd endilənlərlə yanaşı, Azərbaycanın da Türkiyə iqtisadiyyatına investisiya qoymaq imkanları yaranmışdır. Bütün bunlar, Azərbaycan ilə Türkiyə arasında investisiya əməkdaşlığının mövcud vəziyyətinin araşdırılması və inkişaf istiqamətlərinin müəyənləşdirilməsi sahəsində tədqiqatların aparılmasının aktual olduğunu göstərir.

**Problemin öyrənilmə səviyyəsi**. Azərbaycanın xarici ölkələrlə iqtisadi əməkdaşlığının, o cümlədən də Türkiyə ilə qarşılıqlı iqtisadi əlaqələrinin inkişaf məsələləri bir çox iqtisadçı alim tərəfindən araşdırılmışdır. Türkiyəli investorların Azərbaycana investisiya qoyuluşlarının bir sıra mühüm nəzəri-konseptual problemləri və praktiki məsələləri Azərbaycan və Türkiyənin görkəmli iqtisadçı-alimləri tərəfindən tədqiq olunmuş və onların əsərlərində öz əksini tapmışdır. Bunlardan A.Nadirov, A.Ələsgərov, Ş.Hacıyev, Ə.Muradov, Ə.Bayramov, M. Bərxudarov, Z.Səmədzadə, R.Həsənov, M.Məmmədov, H.Seyidoğlu, H. Eynalov, H.Selçuk, O.N.Aras, E.Sancak, Ö.F.Ünal, A.Erdal və başqalarını göstərmək olar. Bununla

belə, müasir dövrdə Azərbaycanın iqtisadi imkanlarının artdığı və yeni inkişaf səviyəsinə keçdiyi bir mərhələdə Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının yeni cəhətləri formalaşmaqdadır. Bu həm Azərbaycan iqtisadiyyatının diversifikasiyası ilə, həm də Azərbaycandan investisiya ixracı ilə əlaqədardır. Hazırda iki ölkə arasında qarşılıqlı investisiya əməkdaşlığı lazımi səviyyədə öyrənilməlidir və bu məsələlərə aid elmi araşdırmaların aparılmasının mühüm əhəmiyyəti vardır.

Beləliklə, ölkədə qeyd edilən problemin aktuallığı və kifayət qədər öyrənilməməsi dissertasiya mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının mövcud vəziyyətinin kompleks təhlili əsasında bu əməkdaşlığın inkişaf istiqamətlərinə dair əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Bu məqsədə çatmaq üçün konkret vəzifələr müəyyənləşdirilmiş və həmin vəzifələr aşağıda göstərilmiş şəkildə məntiqi ardıcıllıqla yerinə yetirilmişdir.

-ikitərəfli xarici iqtisadi əməkdaşlığın formalaşması və inkişafı xüsusiyyətlərinin araşdırılması;

- xarici investisiyanın milli iqtisadiyyata cəlb edilməsini şərtləndirən amillər və onun formalarının müəyyənləşdirilməsi;

- Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığın inkişaf dinamikasının araşdırılması;

- Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının mövcud səviyyəsinin qiymətləndirilməsi;

- Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf perspektivlərinin müəyyənləşdirilməsi;

- Türkiyə kapitalının Azərbaycan iqtisadiyyatında rolunun artırılması imkanlarının müəyyən edilməsi;

- Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının reallaşma mexanizminin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti** Azərbaycan və Türkiyə arasında həyata keçirilən

investisiya fəaliyyətləridir.

**Tədqiqatın predmetini** Tədqiqat işinin predmetini ikitərəfli investisiya əməkdaşlığının o cümlədən Azərbaycan və Türkiyə investisiya əməkdaşlığının inkişafının nəzəri, metodoloji və praktiki məsələlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları** neoklassik iqtisadi nəzariyyə, beynəlxalq iqtisadiyyatın ümumi nəzəriyyəsi, Azərbaycan və Türkiyə arasındaki iqtisadi əməkdaşlığın, Türkiyəli sərmayədarların Azərbaycandakı investisiyalarının ümumiləşdirici və sosial siyasi konsepsiyaları, görkəmli iqtisadçı alimlərin əsərləri, hökümətin qərar və sərəncamları təşkil edir.

Tədqiqat işində sistemli-funksional, məntiqi, müqayisəli təhlil və ümumiləşdirmə, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın əsas elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ikitərəfli xarici iqtisadi əməkdaşlığın formalaşması və inkişafı xüsusiyyətləri dəqiqləşdirilmişdir;
- xarici investisiyanın milli iqtisadiyyata cəlb edilməsini şərtləndirən amillər açıqlanmışdır;
- Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığının inkişaf dinamikası və mövcud səviyyəsi empirik aspektdən qiymətləndirilmişdir;
- Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf perspektivləri müəyyənləşdirilmişdir;
- Türkiyə kapitalının Azərbaycan iqtisadiyyatında rolunun artırılması imkanları müəyyən edilmişdir;
- Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının reallaşma mexanizminin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Dissertasiyada verilmiş nəzəri müddəalar, metodoloji yanaşmalar Azərbaycan və Türkiyənin arasında investisiya əməkdaşlığı inkişafı sahəsində mövcud elmi bilikləri genişləndirməyə, bu proseslərinin dövlət tənzimlənməsinin nəzəri və praktiki məsələlərini həll etməyə imkan verir. Tədqiqatın əsas müddəalarından, işdə irəli sürülən təklif və

tövsiyələrdən istifadə edilməsi Azərbaycan və Türkiyənin arasında investisiya əməkdaşlığının intensivləşdirilməsinə, xarici investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə kömək edəcəkdir.

**Aprobasiya və tədqiqat nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas nəticələri iki beynəlxalq və bir ümumrespublika elmi-nəzəri və praktiki konferansında müzakirə olunmuşdur.

Dissertassiya işinin esas nəticələri Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Türkiyə Böyük Millət Məclisi Azərbaycan Türkiyə Daimi Komissiyası, Türkiyənin Bakıdakı səfirliyinə təqdim edilmiş və Türkiyəli Sərmayədarların Azərbaycana investisiya yatırımı strategyasının hazırlanmasında istifadəsi məqsədəuyğun hesap edilmişdir.

Dissertasiya tədqiqatının məzmununda umumi həcmi 7,79 ç.v olan 16 məqalə və tezis, o cümlədən 2-si xaricdə dərc olunmuşdur.

**Tədqiqat işinin həcmi və quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, 9 paragraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 132 səhifə həcmindədir. İşdə 18 cədvəl və 7 şəkil vardır. Tədqiqat zamanı istifadə olunmuş ədəbiyyat siyahısı Azərbaycan, türk, rus və ingilis dillərində olan 154 sayda mənbədən ibarətdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I fəsil. Ölkələrarası xarici iqtisadi əməkdaşlığın formalaşması və inkişafının nəzəri əsasları**

1.1. İkitərəfli xarici iqtisadi əməkdaşlığın formalaşması və inkişafı xüsusiyyətləri

1.2. Xarici investisiyanın milli iqtisadiyyata cəlb edilməsini şərtləndirən amillər

1.3. Xarici investisiyanın cəlb edilməsi formaları

**II fəsil. Azərbaycan və Türkiyə arasında investisya əməkdaşlığının mövcud vəziyyətinin qiymətləndirilməsi**

2.1. Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığının inkişaf dinamikasının təhlili

2.2. Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının müasir vəziyyəti

2.3. Türkiyə kapitalının Azərbaycan iqtisadiyatının ayrı-ayrı sahələrinin inkişafında rolunun qiymətləndirilməsi

**III fəsil. Türkiyə və Azərbaycan arasında investisiya əməkdaşlığının inkişafı istiqamətləri**

3.1. Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf perspektivləri

3.2. Türkiyə kapitalinin Azərbaycan iqtisadiyyatında rolunun artırılması imkanları

3.3.Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının reallaşma mexanizminin təkmilləşdirilməsi yolları

**Nəticə**

**İstifadə olunmuş ədəbiyyat**

## İŞİN ƏSAS MƏZMUNU

### 1.Ölkələrarası xarici iqtisadi əməkdaşlığın formalaşması və inkişafı xüsusiyyətləri

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi ayrı-ayrı ölkələrdə milli iqtisadiyyatın ixtisaslaşma səviyyəsini yüksəltmək və bununla da, mövcud iqtisadi resurslardan daha səmərəli istifadə etməklə istehsalın həcmini artırmaq imkanı yaradır. Belə ki, xarici iqtisadi əlaqələrin inkişafı nəticəsində ölkələr, nisbətən səmərəli istehsal edə bildiyi məhsullar üzrə ixtisaslaşması və bu məhsulları nisbətən səmərəsiz istehsal etdikləri məhsullara mübadilə etməsi nəticəsində əlavə gəlir əldə edə bilirlər. Bundan başqa, idxal inkişaf üçün zəruri olan maşın və avadanlıqların, xammal və materialların alınmasına, ixrac isə daxili bazar məhdudiyyətlərini aradan qaldırmağa şərait yaradır. Həmçinin, xarici investisiyanın cəlb edilməsi iqtisadi inkişaf üçün zəruri olan investisiya qoyuluşlarının həyata keçirilməsi sahəsində məhdudiyətləri azaltmağa imkan verir. Dünya iqtisadiyyatında kapitalın daha optimal yerləşdirilməsi yaradılan məhsulun həcminin artımına səbəb olur. Bütövlükdə, ölkələr arasında xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı məhsulların istehsal miqyasını artırmaq üçün əlverişli şərait yaratmaqla, yəni ixtisaslaşmanın dərinləşməsinə səbəb olmaqla istehsalın səmərəliliyini artırmaq üçün zəmin yaradır.

Ölkələr arasında xarici iqtisadi əlaqələrin formalaşmasının əsasında əsasən iki amil dayanır. Birincisi, təbii, əmək, investisiya və digər iqtisadi resurslar ölkələr arasında qeyri-bərabər bölünmüşdür və onlar resurslarla təmin olunma səviyyələrinə görə kəskin şəkildə fərqlənirlər, ikincisi, müxtəlif məhsulların səmərəli istehsalı fərqli texnologiyalar və ya resursların müxtəlif kombinasiyasını tələb edir. Bu baxımdan, xarici iqtisadi əlaqələrin inkişafının kiçik və az gəlirli iqtisadiyyatlara təsiri aşağıdakılar ola bilər:

- Gəlir səviyyəsinə və miqyasına görə nisbətən kiçik ölkə iqtisadiyyatının inkişafının daxili mənbələrini məhdudlaşdıran əsas amillərdən biri yerli bazarın kiçik olmasıdır. Xarici iqtisadi əlaqələrin inkişafı daxili bazarın həcmi ilə bağlı məhdudiyətləri azaldır. Bu baxımdan, dünya bazarında satışın həcminin artırılması istehsalın həcminin artırılmasının ən səmərəli yoludur;
- Xarici iqtisadi əlaqələrin inkişafı milli iqtisadiyatda ixtisaslaşma səviyyəsini yüksəltməyə imkan verməklə daxili resurslardan daha səmərəli istifadə imkanları yaradır;
- Xarici iqtisadi əlaqələr potensial imkanlara malik istehsalların inkişafı üçün zəruri olan rusursları tamamlamağa imkan yaradır.

Bütövlükdə, ölkənin nisbi üstünlüyə malik olduğu istehsallar üzrə ixtisaslaşması və rəqabət qabiliyyətinə malik olmadığı sahələrin məhsul və xidmətlərinin idxalı iqtisadiyyatın sağlamlaşdırılmasına və ölkənin inkişafına kömək edən proseslərdir. Ölkə iqtisadiyyatı müəyyən sahələrin məcmusundan ibarət olduğundan, dünya bazarında da müəyyən sahələr üzrə rəqabətqabiliyyətli olur

Hazırda beynəlxalq əmək bölgüsünün ağırlıq mərkəzi sahələrarası ixtisaslaşmadan sahədaxili ixtisaslaşmaya keçmişdir. Ayrı-ayrı sahələrdə firmalar məmulatların, qovşaqların və detalların müəyyən növünü seçir və öz istehsal səylərini bu istiqamətə yönəldirlər. Belə şəraitdə istehsalın beynəlxalq səviyədə yerləşdirilməsi baş verir ki, bu da xarici iqtisadi əlaqələrin genişlənməsinə səbəb olur. Xarici investisiya qoyuluşu nəticəsində yaradılan müəssisələrin yerli müəssisələrə nisbətən az stabil olması, onun xarici təsirlərdən daha çox asılı olması onların zəif cəhətlərindəndir.

Beynəlxalq əməliyyatların həyata keçirilməsi prosesində ixracatçılar, idxalçılar və investorların maraqlarına toxunan çoxlu sayda risklər yaranır. Xarici-iqtisadi sövdələşmələrin həyata keçirilməsində risk dedikdə, özünün iflası və ya ölkədə siyasi və iqtisadi vəziyyətin dəyişməsi nəticəsində müəssisənin və ya onun tərəfdaşlarından birinin öz öhdəliklərini yerinə yetirməməsi nəticəsində digərinin maliyyə itkilərilə üzləşməsi təhlükəsi nəzərdə tutulur. Belə risklərdən qorunmanın müxtəlif üsulları mövcuddur ki, bunlardan biri də sığorta alətləridir.

Müxtəlif ölkələrin rezidentləri arasındakı bütün sövdələşmələri üç tipdə qruplaşdırmaq olar: əmtəə və xidmətlərin əmtəə və xidmətlərə mübadiləsi əsasında ticarət, aktivlərlə mübadilə əsasında əmtəələrlə və ya xidmətlərlə ticarət, aktivlərlə mübadilə əsasında aktivlərlə ticarət. Bunun sxematik olaraq aşağıdakı kimi göstərə bilərik.




Şəkil 1. ***Beynəlxalq sövdələşmələrin tipləri***

Beləliklə, ölkələlarası xarici iqtisadi əlaqələr istənilən ölkənin iqtisadi inkişafında mühüm rol oynayır və cəmiyyət həyatının bütün tərəflərinə təsir göstərir. Milli iqtisadiyyatın səmərəliliyinin yüksəltmək üçün ölkənin xarici iqtisadi fəaliyyəti genişləndirməsi vacib şərtlərdən biridir.

## 2.Xarici investisiyanın milli iqtisadiyyata cəlb edilməsini şərtləndirən amillər cəlb edilməsi formaları

Bir ölkəyə qoyulan xarici investisiya, «bir ölkədəki mövcud kapitalın həcminə başqa bir ölkənin mülkiyyətində olan investisiyanın əlavə edilməsidir». Yəni, investisiya vəsaitlərinin investorlar və qurumlar tərəfindən başqa bir ölkəyə

daşınmasına «xarici investisiya» deyilir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə dünya iqtisadiyyatında kapital axınlarının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, qlobal xarici birbaşa investisiyaların axını 2010-cu ildə əvvəlki ilə nisbətən 5,0 faiz artaraq 1,24 trilyon ABŞ dollarına bərabər olmuşdur. 2011-ci ildə də qlobal xarici investisiyaların axını əvvəlki ilə nisbətən 16 faiz artaraq 1,66 trilyon təşkil etmişdir ki, bu da 2004-cü ildəki səviyyədən təqribən 2 dəfə çoxdur. Buna baxmayaraq qlobal xarici investisiyaların axının həcmi qlobal dünya böhranından qabaqkı səviyyəyə çatmamışdır. Belə ki, 2011-ci ildə qlobal xarici investisiyaların axını 2007-ci ilə nisbətən təqribən 25 faiz az olmuşdur. Bu ildə inkişaf etmiş ölkələrdən xarici investisiya axınlarının həcmi 1,23 trilyon təşkil etmişdir. Beləliklə, xarici investisiya axınları dünya iqtisadiyyatında önəmli yer tutur. Bununla belə, xarici investisiya qoyuluşlarının ölkələr üzrə paylanması qeyri-bərabərdir. Belə ki, 2010-cu ildə xarici ölkələrə yönəldilmiş 1244 mlrd. ABŞ dollar məbləğində xarici investisiyaların 228,3 mlrd. ABŞ dolları ABŞ iqtisadiyatına, 105,7 mlrd. ABŞ dolları Çin iqtisadiyyatına, 68,9 mlrd. ABŞ dolları Honq Konq iqtisadiyyatına, 61,7 mlrd. ABŞ dolları Belçika iqtisadiyyatına, 48,4 mlrd. ABŞ dolları Braziliya iqtisadiyyatına qoyulmuşdur. Göründüyü kimi, dünyada birbaşa xarici investisiya qoyuluşlarının 41,2 faizi bu 5 ölkənin payına düşmüşdür.

*Cədvəl* 1

*Dünyada xarici birbaşa investisiya qoyuluşlarının bölgüsü*
*(mln. ABŞ dolları)*

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnkişaf etmiş ölkələr | 601 | 441 | 369 | 419 | 619 | 978 | 1307 | 965 | 603 | 602 |
| İnkişaf etməkdə olan ölkələr | 216 | 175 | 184 | 293 | 332 | 430 | 573 | 658 | 511 | 574 |

**Mənbə:** World Investment Report 2011: Non-Equity Modes of International Production and Development. United Nations Publication, 2011.

Cədvəldə keçid iqtisadiyyatlarına qoyulan xarici investisiya nəzərə alınmamışdır. 2010-cu ildə bu investisiyanın həcmi 68 mlrd. ABŞ dollarına bərabər olmuşdur.

Cədvəldən göründüyü kimi, 2010-cu ildə dünyada xarici birbaşa investisiyaların həcmi inkişaf etmiş ölkələr üzrə təqribən 2001-ci il səviyyəsində olduğu halda, inkişaf etməkdə olan ölkələr üzrə təqribən 2,7 dəfə artmışdır. Nəticədə, qeyd edilən dövrdə xarici birbaşa investisiyaların həcmində inkişaf etməkdə olan ölkələrin payı 26 faizdən 46,1 faizə qədər artmışdır. Bununla yanaşı, 2010-cu ildə inkişaf etmiş ölkələrə xarici investisiya qoyuluşları 2007-ci ilə nisbətən 2,2 dəfə azalmışdır. Belə hal dünya iqtisadi böhranının bu ölkələrə daha əhəmiyyətli şəkildə təsir göstərdiyini əks etdirir.

*Cədvəl 2*

*Dünyada ayrı-ayrı ölkə qrupları tərəfindən qoyulmuş xarici birbaşa investisiyanın həcmi*

*(mln. ABŞ dolları)*

| | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnkişaf etmiş ölkələr | 667 | 483 | 517 | 795 | 746 | 1155 | 1829 | 1541 | 851 | 935 |
| İnkişaf etməkdə olan ölkələr | 83 | 50 | 46 | 121 | 122 | 227 | 294 | 309 | 271 | 328 |

**Mənbə:** World Investment Report 2011: Non-Equity Modes of International Production and Development. United Nations Publication, 2011.

Birbaşa xarici investisiyaları cəlb edən ölkədə gəlirlərin səviyyəsinə və ya iqtisadi artım tempinə müsbət təsir göstərir. Belə ki, xarici investisiyanın cəlb olunması ölkədə aşağıdakı iki tip xarici təsirlərin yaranmasına səbəb olur:

a) xarici firmalara yerli işçilərin işləməsi və ya səfərlər nəticəsində, xarici firmalardan yerli firmalara işçi axını, xarici firmaların yerli farmalara texniki dəstəyi, xarici və yerli firmaların mühəndislərinin müzakirələri və s. vasitəsilə təkmil texnologiyanın və biliklərin xarici firmalardan yerli firmalara keçidi sayəsində texnoloji təsirlərin yaranması;

b) Xarici firmaların yerli firmalardan aralıq məhsullar alması hesabına yerli firmaların məhsullarına tələbin artması nəticəsində yaranan pul formasında olan xarici təsirlərin yaranması.

Xarici investisiyanın cəlb olunması ölkədə, ilk növbədə istehsal resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinə şərait yaradır. Nəticədə, müəyyən həcmdə istehsal amillərinin məşğulluğu artır, ümumi milli gəlir təbii resurs istehsalçıları,

işçi qüvvəsi və sair tərəfindən yaradılan əlavə dəyər hesabına artır. Bundan başqa, inkişaf etməkdə olan ölkələrdə istehsalın texniki-iqtisadi səviyəsinin yüksəldilməsinin yollarından biri xarici investisiyalı müəssisələrin yaradılmasıdır. Belə ki, texnologiyanın diffuziyası iqtisadi inkişafda əsas rol oynayır. İnkişaf etməkdə olan ölkələrdə i qtisadi inkişafa, inkişaf etmiş ölkələrdən mövcud texnologiyaların cəlb edilməsinin mühüm rolu vardır. Texnologiyanın yayılması müxtəlif kanallarla baş verə bilər. Bu kanallara məhsulların alınması, texnologiyaların alınması və insan kapitalının cəlb edilməsi aiddir. Bu zaman, birbaşa xarici investisiyalar qeyd edilən kanalların reallaşdırılması baxımından mühüm vasitə hesab edilir. Xüsusilə, Transmilli Şirkətlərin investisiya qoyuluşları texnologiyaların yayılmasının əsas vasitəsidir.

Cədvəl 3

*Ölkəyə investisiya qoyuluşlarına təsir edən amillər*

<table>
<tr><td>Amillər</td><td colspan="2">İnvestisiyanın qoyulduğu ölkələri xarakterizə edən amil qrupları</td></tr>
<tr><td>Siyasi amillər</td><td colspan="2">▪ İqtisadi, siyasi və ictimai sabitlik<br>▪ Xarici investisiyalarla bağlı beynəlxalq razılaşmalar<br>▪ Vergi siyasəti<br>▪ Ticarət siyasəti və BXİ siyasətinin tutarlılığı<br>▪ Özəlləşdirmə siyasəti<br>▪ Bazarların quruluşu və fəaliyyətilə bağlı siyasətlər (xüsusilə, rəqabət və şirkət satın alma, birləşmə siyasətləri)<br>▪ Xarici iştirakların razılaşma standartları</td></tr>
<tr><td>İnvestisiya mühitilə bağlı amillər</td><td colspan="2">İnvestisiyaların dəstəklənməsi (imic yaradılması, şirkətin satışa çıxarılması vs.)<br>İnvestisiyanın təşviq edilməsi<br>Xərclər (rüşvət, bürokratik fəaliyyət və s.)<br>İnvestisiya sonrası xidmətlər<br>İctimai amillər (həyat keyfiyyəti vs.)</td></tr>
<tr><td rowspan="3">İqtisadi amillər</td><td>İnvestisiya strategiyaları</td><td>Amillər</td></tr>
<tr><td>Bazar yönümlü</td><td>• Bazarın həcmi və adambaşına milli gəlir<br>• Bazarın həcminin artım tempi<br>• Regional və qlobal bazarlara giriş imkanları<br>• İstehlakçı tərcihleri<br>• Bazarların strukturu</td></tr>
<tr><td>Məhsuldarlıq yönümlü</td><td>İstehsal amilləri ilə əlaqədar xərclər və əmək məhsuldarlığı<br>Digər xərclər</td></tr>
</table>

| | | |
|---|---|---|
| | | Regional inteqrasiya təşkilatlarına üzvlük, iqtisadiyyatın miqyası |

**Mənbə:** «World Investment Report 1998: Trends and Determinants», UNCTAD , UN: New York and Geneva, 1998, s. 91

Cədvəldən göründüyü kimi, ölkəyə xarici investisiya qoyuluşlarına təsir edən amillər 3 qrupa ayrılmışdır: siyasi, investisiya mühiti ilə bağlı olan və iqtisadi amillər. İqtisadi amillər özləri də investisiya strategiyasının xüsusiyyətindən asılı olaraq 3 alt qrupa bölünmüşdür.

Birbaşa xarici investisiyanın cəlb edilməsində əsas amil bazarın həcmi və onun artım tempidir. Belə ki, firma daxili bazarda öz payını artıra bilmirsə, o, ölkədə iqtisadi artım tempinə uyğun mənfəətini artırmaq imkanına malikdir. Bununla belə, birbaşa xarici investisiyalar təkcə daxili bazara istiqamətlənmiş olmaya bilər. Bu investisiyalar ixrac yönümlüdə ola bilər. Məsələn, Çin iqtisadiyyatına qoyulmuş investisiyanın əhəmiyyətli hissəsi ixrac bazarlarına istiqamətlənmişdir. Yəni bu ölkədə yaradılan istehsalatlarda istehsal edəilən məhsulların əhəmiyyətli hissəsi xarici ölkələrə ixrac olunur. Belə ölkələrin cəlbediciliyi onlarda ucuz və bol resursların, o cümlədən əmək resurslarının mövcud olması ilə əlaqədardır.

Birbaşa xarici investisiyalar kapitalın beynəlxalq hərəkəti formaları arasında əsas yer tutur. Birbaşa xarici investisiyaların əsas əlamətlərindən biri onlar əsasında firmalar arasında uzunmüddətli işgüzar əlaqələr yaranır, investor vəsaitini qoyduğu müəssisədə qərarların qəbul edilməsində əhəmiyyətli rol oynamağa başlayır.

Birbaşa xarici investisiyalar aşağıdakı əsas formalarda həyata keçirilir:

1. Xarici filialların və törəmə müəssisələrin yaradılması yolu ilə.
2. Firmaların beynəlxalq qovuşması və birləşməsi yolu ilə.
3. Strateji alyansların yaradılması yolu ilə.

## 3.Azərbaycan və Türkiyə arasında investisya əməkdaşlığının mövcud vəziyyətinin qiymətləndirilməsi ve inkişaf dinamikasının təhlili

Azərbaycan dünyanın ən stratejik nöqtələrindən birində, yəni Orta Asiya, Orta Şərq və Ön Asiyanın ortasında və mühüm ticarət yolları üzərində yerləşir. Azərbaycanın bu strateji mövqeyi onun iqtisadi, sosial və siyasi üstünlüklər qazanmasına səbəb olur. Azərbaycanın Türkiyə ilə qonşuluq mövqeyində olması

və iqtisadi əlaqələrin səmərəli həyata keçirilməsi, bu ölkələr arasıda bir çox sahələrdə qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərait yaratmışdır. Qədim tarixi ənənəyə malik olan hər iki ölkənin iqtisadi əlaqələrinin inkişafına təsir göstərən bir sıra mühüm amillər vardır. Birincisi, birbaşa iqtisadi əlaqələrin inkişafı üçün Bakı-Naxçıvan-Türkiyə nəqliyyat xətti mövcuddur. İkincisi, hər iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərə bilən zəngin təbii resursların olması, xüsusilə əlverişli təbii iqlim şəraitinin mövcudluğu ilin bütün fəsillərində istehsal sahələrinin ritmik fəaliyyətinə imkan verir. Üçüncüsü, Azərbaycan-Gürcüstün-Türkiyə, Azərbaycan-İran-Türkiyə ölkələrarası əlverişli nəqliyyat xətləri mövcuddur ki, bu da qarşılıqlı əlaqələrə müsbət təsirini göstərir. Dördüncüsü, Türkiyə iqtisadiyyatının çox sahəli struktura malik olması, xüsusilə burada sənayenin bir çox sahələrinin: metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənayesi sahələrinin inkişafı xarici iqtisadi əlaqələrin inkişafına əlverişli təsir göstərir. Qeyd edilən bu amillər hazırki şəraitdə Azərbaycan Türkiyə iqtisadi əlaqələrinin inkişafını şərtləndirir. Türkiyənin həm bir Avropa, həm də bir Asiya ölkəsi olması bu əlaqələrin genişlənməsinə müsbət təsir göstərir. Bununla yanaşı, Azərbaycanın Asiya ölkələri ilə əlaqələr baxımından daha əlverişli strateji mövqədə yerləşməsi, Türkiyə və Asiya ölkələrinin bir çoxu ilə tarixi köklərlə bir-birilə yaxın olması, qədim mədəniyyət və təsərrüfat ənənələrinin mövcudluğu, Xəzər dənizi vasitəsilə Asiya ölkələri ilə Türkiyə arasında ən ucuz yollarla yüklərin daşınması baxımından Azərbaycanın tranzit olkə kimi çıxış etməsi imkanı Azərbaycanla Türkiyə iqtisadi əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi, coğrafi və mədəni dəyərləri ilə bir-birinə bağlı olan Türkiyə arasında müxtəlif sahələri əhatə edən və iqtisadi-ticarət əlaqələrinin hüquqi əsaslarını təşkil edən 150-ə yaxın əməkdaşlıq, razılaşma və protokol imzalanmışdır.

Hazırda Azərbaycanın Türkiyə ilə iqtisadi və ticarət əlaqələri 01.11.1993-cü il tarixli "Ticarət və İqtisadi Əməkdaşlıq Anlaşması" çərçivəsində həyata keçirilir. Bu anlaşmaya görə tərəflərin bir-birlərini "Ən çox güzəştə gedən ölkə statusu"nda tanımaları qərarlaşdırılmışdır. Bundan sonra imzalanan çoxlu sayda anlaşma və

müqavilələr isə ikitərəfli ticarət və iqtisadi əlaqələrin inkişafı üçün böyük zəmin yaratmışdır. Bunların içərisində 2007-ci ilin noyabrın 6-da Bakı şəhərində imzalanmış «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramı və İcra Planı» mühüm əhəmiyyətə malikdir. Bu sənədə əsasən iki ölkə arasında iqtisadi əməkdaşlıq üçün 8 prioritet sahə müəyyən olunmuşdur ki, bunlara da ticarət, azad iqtisadi zona, sənaye, energetika, nəqliyyat, rabitə, turizm və kənd təsərrüfatı aiddir. Bu sənəddən əlavə 2010-cu ilin avqustun 16-da Bakı şəhərində «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında» müqavilə bağlanmışdır. Bu müqavilə iqtisadi əməkdaşlıq səviyyəsini yeni səviyyəyə qaldırır.




Şəkil 2. **Türkiyənin Azərbaycanın xarici ticarətində payı (faizlə)**

1996-2000-ci illərdə Türkiyənin Azərbaycanın xarici ticarətində rolu 1997-ci ildə pik nöqtəsinə çatmış, bundan sonra isə azlmağa başlamışdır. Belə ki, 1997-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin payı 24,0 faizə, idxalında 40,2 faizə, ixracında payı isə 7,5 faizə bərabər olmuşdur. Şəkil 2.1-dən göründüyü kimi, 2000-ci ildə Türkiyənin Azərbaycanın xarici ticarət dövriyyəsində payı təqribən 1992-ci il səviyyəsinə enmişdir. Qeyd etmək lazımdır ki, 90-cı illərin əvvəllərində türk şirkətlərinin Azərbaycanda digər ölkələrin şirkətlərilə müqayisədə həm investisiya qoyuluşu, həm də ticarət fəaliyyətində böyük üstünlüyə malik olmuşlar. Bu üstünlüklər hər iki dövlətin eyni etnik köklərə malik olması, adət və ənənələrin və dillərin yaxınlığı ilə əlaqədar olmuşdur. Bu amillər Azərbaycan müəstəqillik əldə etdikdən sonra iki dövlətin yaxınlaşmasına

səbəb olmuşdur. Müstəqilliyin ilk illərində türk iş adamlarının Azərbaycan bazarına dərin marağı və türk şirkətlərinin Azərbaycanda nümayəndəliklərinin açılması ilə əlaqədar olaraq Azərbaycanın idxal əməliyyatlarında Türkiyə əsas yer tutmuşdur. Lakin bir tərəfdən həm digər ölkələrin Azərbaycan bazarına daxil olması Türkiyənin bu üstünlüyünün azalmasına səbəb olmuşdur. Bundan başqa, 1998-ci ildə Rusiyada baş vermiş böhrandan sonra rus rublunun devalivasiya olunması və nəticədə, Rusiyadan Azərbaycana idxal edilən məhsulların qiymətə görə rəqabət qabiliyyətinin, digər ölkələrdən, o cümlədən Türkiyədən idxal olunan mallara nisbətən artmasına səbəb olmuşdur. Bununla yanaşı, Azərbaycanın digər qonşusu olan İran mallarının ucuz olmasına baxmayaraq, türk mallarına nisbətdə daha az keyfiyyətli olması Azərbaycan bazarında bu ölkələrin malları arasında rəqabətdə qiymət amilinin təsirini azaltmışdır. Bu da Türkiyədən Azərbaycana ixracın həcminə müsbət təsir etmişdir.

*Cədvəl 4*

*2011-ci ildə Azərbaycanın xarici ticarətində ilk 6 ölkə*

*(mln. ABŞ dolları)*

| | İdxal | İxrac | İdxalda payı (faizlə) | İxracda payı (faizlə) |
|---|---|---|---|---|
| Cəmi | 9756,0 | 26570,9 | 100 | 100 |
| İtaliya | 254,6 | 9341,0 | 2,6 | 35,2 |
| Rusiya | 1641,1 | 1187,4 | 16,8 | 4,5 |
| ABŞ | 630,5 | 1804,6 | 6,5 | 6,8 |
| Türkiyə | 1302,4 | 455,8 | 13,3 | 1,7 |
| Fransa | 608,9 | 4036,7 | 6,2 | 15,2 |
| Almaniya | 845,3 | 523,4 | 8,7 | 2,0 |

**Mənbə:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi 2011-ci il məlumatları əsasında tərtib edilmişdir.

Cədvəl 4-ün məlumatlarından göründüyü kimi, 2011-ci ildə Azərbaycanın idxalında Türkiyənin payı 2000-ci ildə artsa da, ixracında payı əhəmiyyətli dərəcədə azalmışdır. Belə hal neft ixracı ilə əlaqədar olmuşdur. Məsələn, 2011-ci ildə Azərbaycanın İtaliyaya ixracının 99,1 faizini, ABŞ-a ixracının 99,7 faizini, Fransaya ixracının 99,9 faizini, Almaniyaya ixracının 96,0 faizini, Türkiyəyə ixracının isə yalnız 21,7 faizini xam neft təşkil etmişdir.

Müasir dövrdə Azərbaycana həm türk, həm də diqər xarici ölkələrin investisi-

ya axınlarını stimullaşdıra biləcək amillərə isə aşağıdakılarıları aid etmək olar:

- siyasi sabitlik. Hazırda Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra siyasi cəhətdən daha stabil vəziyyət yaranmışdır;

- ucuz və keyfiyyətli işçi qüvvəsi. Keçmiş İttifaqdan Azərbaycanın əldə etdiyi nəticələrdən biri qüclü və hərtərəfli təhsil sisteminin qalması və bunun sayəsində də ixtisaslı kadrlara malik olmasıdır. Xüsusən də, Azərbaycanda mövcud işsizlik xarici müəssələrdə fəaliyyətə marağı daha da artırır;

- zənqin və müxtəlif təbii ehtiyyatların mövcudluğu;
- əlverişli iqtisadi coğrafi mövqe;
- istehsal olunmuş məhsulu reallaşdirmaq üçün bazarın olması;
- qonşu və daha böyük bazarlara yaxınlıq.

Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan cəmi xarici investisiyada payı kiçik olsa da, xarici investisiyalı müəssisələrin yaradılması və kapitallarının artırılmasına xarici investisiyanın həcmində payı yüksək olaraq qalmaqdadır. Belə ki, 2005-2010-cu illərdə xarici investisiyalı müəssisələrin yaradılması və kapitallarının artırılmasına xarici investisiyanın cəmi həcmində Türkiyənin payı 22,3 faizə bərabər olmuşdur. Belə hal Azərbaycanda əsas kapitala investisiyanın həcmində Türkiyənin payının nisbətən yüksək olmasına səbəb olmuşdur.

*Cədvəl 5*

*Xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyalar*

*(mln. ABŞ dolları)*

| Ölkələrin adı | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 1560,9 | 2848,0 | 3598,8 | 3665,0 | 3333,1 | 2844,5 | 2242,0 | 1645,0 | 2406,5 | 2600,1 |
| o cümlədən: | | | | | | | | | | |
| Böyük Britaniya | 512,6 | 1253,4 | 1788,9 | 1884,7 | 1547,7 | 1222,6 | 1025,6 | 800,9 | 1247,2 | 1184,5 |
| ABŞ | 346,5 | 561,0 | 737,7 | 651,3 | 574,6 | 649,6 | 435,1 | 301,0 | 359,4 | 385,7 |
| Yaponiya | 206,8 | 121,4 | 406,2 | 365,9 | 325,6 | 346,7 | 225,2 | 113,1 | 180,1 | 234,4 |
| Norveç | 99,3 | 198,9 | 230,2 | 256,8 | 225,3 | 213,1 | 139,0 | 70,5 | 111,9 | 131,0 |
| Türkiyə | 199,6 | 373,7 | 187,7 | 210,6 | 215,3 | 168,0 | 147,3 | 55,9 | 95,0 | 106,3 |
| Digər ölkələr | 0,2 | 0,3 | 0,2 | 0,3 | 0,4 | 0,2 | 0,3 | 0,3 | 0,4 | 0,6 |

**Mənbə:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2010-cu il məlumatları əsasında tərtib edilmişdir.

Cədvəl məlumatlarından göründüyü kimi, 2011-ci ildə Azərbaycanda əsas kapitala investisiya qoyuluşları 2002-ci ilə nisbətən 1,7 dəfə artmışdır. Bununla

belə, Türkiyə şirkətlərinin Azərbaycanda əsas kapitala qoyduqların investisiyanın həcmi qeyd edilən dövrdə təqribən 2 dəfə azalmışdır. Nəticədə, Azərbaycanda əsas kapitala investisiya qoyuluşlarında Türkiyənin payı 2002-ci ildə 12,8 faizdən 2011-ci ildə 4,1 faizə bərabər olmuşdur. Qeyd etmək lazımdır ki, 2010-cu ildə əsas kapitala xarici investisiyanın 78,2 faizi, 2011-ci ildə isə 72,9 faizi neft sektoruna yönəldilmişdir.

## 4.Türkiyə kapitalının Azərbaycan iqtisadiyatının ayrı-ayrı sahələrinin inkişafında rolunun qiymətləndirilməsi

Türkiyə Azərbaycan iqtisadiyyatına qoyduğu investisiya qoyuluşlarının həcmi cəmi investisiya qoyuluşlarının həcminə nisbətən kiçik olsa da, türk kapitalının ayrı-ayrı sahələrin inkişafına təsiri əhəmiyətlidir.

Türkiyə kapitalının iştirakı ilə Azərbaycanda 1991-2010-cu illərdə cəmi 3007 şirkət yaradılmışdır. Bu şirkətlərin əhəmiyyətli hissəsi öz fəaliyyətlərini dayandırmışlar. Təqribi hesablamalara görə Azərbaycanda 2010-cu ilin sonuna 780-ə yaxın türk kapitalı ilə yaradılmış şirkət fəaliyyət göstərir. Təkcə 2010-cu ildə yaradılmış şirkətlərin sayı 279-a bərabər olmuşdur.

Azərbaycan və Türkiyə arasında kənd təsərrüfatı sahəsində də əməkdaşlıq aparılır. Bu əməkdaşlıq 1994-cü ildə imzalanmış «Kənd təsərrüfatında elmi-texniki və iqtisadi əməkdaşlıq haqqında» saziş əsasında həyata keçirilir. Bu sahənin inkişafı ilə bağlı son illər müsbət dəyişikliklər müşahidə olunur. 2007-ci il aprelin 10-13-də Diyarbəkirdə təşkil olunan «II Yaxın Şərq Kənd Təsərrüfatı Sərgisi»ində Azərbaycanın da iştirakı, iki ölkə arasında bu sahədə iqtisadi əlaqələrin daha da dərinləşməsinə təkan vermişdir.

İki ölkə arasında əməkdaşlıq iqtisadiyyatın bankçılıq və sığorta sektorunda da yaradılmış və inkişaf edir. Türkiyənin bankları və sığorta təşkilatları Azərbaycanda uzun müddətdir ki, fəaliyyət göstərirlər. Türkiyə banklarının Azərbaycanda geniş fəaliyyət göstərmələri bir sıra səbəblərdən irəli gəlir. Azərbaycan və Türkiyə arasında ticarətin nizama salınması və artırılması ilə bağlı maliyyə sahəsində mövcud olan problemlərin optimal şəkildə həlli üçün təcrübəli türk banklarının

Azərbaycanda fəaliyyət göstərmələri məqsədəuyğundur. Digər tərəfdən, çoxlu sayda türk iş adamı Azərbaycanda biznes fəaliyyəti ilə məşğuldurlar və Türkiyədən olan insanlar əmək fəaliyyəti göstərirlər. Onların istər Azərbaycanda fəaliyyətində, istərsə də Türkiyəyə pul köçürmələri və digər bank xidmətlərindən istifadəsində türk bankları xüsusi rol oynayır. Bunlardan başqa Türkiyənin Azərbaycana ixracının artması və yuxarıda qeyd edilən amillər Azərbaycanda yeni türk banklarının fəaliyyətə başlamasına səbəb olmuşdur. Türkiyə-Azərbaycan əlaqələrinin durmadan inkişafı isə bu prosesi daha da sürətləndirmişdir.

Azərbaycan və Türkiyə arasında əməkdaşlığın ən mühüm istiqamətlərindən biri də təhsil sahəsidir. 1991-ci ildən etibarən Naxçıvanda "Çağ" MMM fəaliyyətə başlamışdır. Azərbaycanda 11 kollec, 10 Araz Ali Təhsil Hazırlıq Kursu, 1 gimnaziya və Qafqaz Universiteti fəaliyyət göstərir. "Çağ" Öyrətim İşlətmələri tərkibində bir universitet (Qafqaz Universiteti), 10 lisey (Azərbaycan-Türkiyə Özəl Liseyləri), 2 orta məktəb (Qafqaz İlk Öyrətim), 10 universitetə hazırlıq kursu (Araz Kursu) olmaqla cəmi 23 müəssisə var. Qafqaz Universitetindən məzun olan təxminən 2500 nəfər isə, Azərbaycanda mühüm dövlət və özəl firmalarda işləyir ya da Azərbaycan, Türkiyə, Avropa ölkələri və ya ABŞ-da magistratura və doktorantura təhsillərini davam etdirirlər.

Müxtəlif sahələrdə fəaliyyət qöstərən türk firmalarının böyük bir qismi ticarət fəaliyyəti ilə məşğul olur yaxud da kiçik və orta həcmli invetisiya yatırımları həyata keçirirlər. Bu firmaların fəaliyyət sahəsi: neft, telekommunikasiya, bank və sığorta, qida malları emalı, təhsil, mətbuat və yayım, toxuculuq, nəqliyyat, meşə materialları, inşaat məmulatları və bir sıra xidmət sahələri kimi sektorlardır.

Azərbaycanda neft sənayesinin inkişafına investisiya yönəldən şirkətlər arasında TPAO-dan başqa diqər şirkətlər də mövcuddur. Bu sahədə əsas şirkətlərdən biri də Türkiyənin BOTAŞ şirkətidir. Belə ki, bu şirkət BTC əsas ixrac neft kəmərinin və Cənubi Qafqaz qaz boru kəməri layihələrinin əsas tikinti podratçılarından olmuşdur.

Azərbaycanın qeyri-neft sektoruna ən çox investisiya yatıran investorlar arasında Türkiyəli investorlar daha üstünlük təşkil etmişlər. Qeyri-neft sektoruna 1

mln. ABŞ dollarından çox investisiya qoyan şirkətlərin sayı 2010-cu ildə otuzdan çox olmuşdur. Bunu aşağıdakı cədvəldən görmək olar.

*Cədvəl 6*

*Azərbaycan iqtisadiyyatına 1 mln. ABŞ dollarından artıq investisiya qoymuş Türkiyə şirkətləri*

| Adı | Sahə | İnvestisiyanın həcmi (mln. ABŞ dolları) | İşçilərin sayı (nəfər) |
|---|---|---|---|
| AZƏRTÜRK BORU PROFİL SƏNAYE | Boru və profil istehsalı | 1,2 | 40 |
| AZTURQAZ | Qaz balonlarının doldurulması və təmiri | 1,0 | 70 |
| ELVAN TÜRK-AZƏRİ QİDA SƏNAYE | Şirniyat istehsalı | 1,0 | 70 |
| FATİ OĞLU | Un və un məmulatları istehsalı | 3,0 | 110 |
| KERPİÇSAN | İnşaat materialları istehsalı | 1,0 | 65 |
| KİSSAN PARKET | Parket istehsalı | 1,5 | 175 |
| ATOİL | Yanacaq doldurma stansiyası | 1,0 | 6 |
| AKSSESUAR İNŞAAT | İnşaat mallarının satışı | 1,2 | 40 |
| ATABEY – AKABE İNŞAAT | İnşaat | 2,0 | 110 |
| QLOBAL SİSTEM | İnşaat | 2,0 | 200 |
| SPARK BETON | Beton | 2,0 | 35 |
| COCA-COLA | Qazlı içkilər istehsalı | 41,0 | 405 |
| ÇAĞ ÖĞRETİM | Təhsil | 1,5 | 1000 |
| MERT PETROL | Yanacaqdoldurma stansiyası | 0,9 | 45 |
| TR-USA MEDİKAL | Tibb sahəsində xidmət | 0,8 | 40 |
| Dizayn Qrup | Polietilen borular | 15,0 nəzərdə tutulur | 400 nəzərdə tutulur |

**Mənbə:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2010-cu il məlumatları əsasında tərtib edilmişdir.

Azərbaycan və Türkiyə arasında qurulan əlaqələr çərçivəsində Azərbaycana gələn türk iş adamları ilə birgə şəkildə yatadılan TÜSİAB türk iş adamlarının Azərbaycan iqtisadiyyatına isvestisiya yatırmalarında və onların Azərbaycanda milli sahibkarların fəaliyyətlərinə dəstək olmalarında, bu sahədə üzvlər arasında həmrəylik və əməkdaşlığın təmin edilməsində və iki ölkə arasındakı iqtisadi və ticari əlaqələrinin inkişafında böyük rol oynamışdır.

Pambıqçılıqda "MKT", taxıl sahəsində "Fatı oğlu", bitki yağlarının və çayın emalı və qablaşdırılmasında "Azərsun Holdinq" şirkətləri fəaliyyət göstərirlər. İnşaat və inşaat vəsaitləri sektorundan sonra qida sektoru 18,4% xüsusi çəkiylə ikinci yerdə dayanır. Çay bitkisi, yağ və un məmulatları istehsalı üzrə türk iş

adamlarının fəaliyyəti daha üstünlük təşkil edir. Restoran biznesi sahəsində də türk iş adamları geniş fəaliyyət göstərirlər. Türk sərmayədarlarının öz vəsaitlərini yönəltdikləri sahələrdən biri də toxuculuq və tikiş sektorudur. Ümumiyyətlə, bu sektora vəsait yatıran türk sərmayədarları ev tekstili, ayaqqabı, yaylı yataq, xalça istehsalı, iplik istehsalı kimi çox müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

## 5.Azərbaycan-Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf perspektivləri ve Türkiyə kapitalinin Azərbaycan iqtisadiyyatında rolunun artırılması imkanları

Azərbaycan və Türkiyə arasındakı mövcud yüksək əlaqələr fonunda elə sahələr vardır ki, bu sahələrdə iqtisadi əməkdaşlıq hər iki ölkənin maraqları baxımından perspektivlidir, lakin hazırda istənilən səviyyədə deyil.

Belə istiqamətlərdən biri iki ölkə arasında elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsidir. Elm və texnikanın indiki sürətlə inkişafı ölkələr arasında elmi-texniki əmkdaşlığı obyektiv zərurətə çevirmişdir. Azərbaycan və Türkiyə arasındakı elmi-texniki əmkdaşlıq hazırda iqtisadi münasibətlər sisteminin əsas hissəsini təşkil etməklə xüsusi inkişaf səviyyəsinə çatmışdır.

Azərbaycan və Türkiyə arasında inkişaf perspektivli digər sahə turizm sahəsidir. Turizm sektorunda Azərbaycan-Türkiyə arasında əməkdaşlığın perespektivləri çox güclüdür. Azərbaycanda turizm üçün əlverişli resursların mövcudluğu ölkədə bu sahənin inkişaf etdirilməsi üçün zəmin yaradır. Lakin Azərbaycanda təcrübənin az olması müasir dövrdə bu sahənin inkişaf etdirilməsi üçün müəyyən maneələr yaradır. Türkiyə isə əksinə bu sahədə böyük təcrübəyə malikdir və dünyanın ən aparıcı turizm ölkələrindən sayılır.

Azərbaycan və Türkiyə arasında əməkdaşlığın inkişaf istiqamətlərindən biri də bank və sığorta sahəsində əməkdaşlığın gücləndirilməsidir. Bank və sığorta fəaliyyətində Azərbaycanın Türkiyə ilə əməkdaşlığı respublikamıza əlavə üstünlüklər verə bilər.

Türkiyə ilə iqtisadi əlaqələrin hər iki ölkə üçün səmərəli inkişafı istiqamətlərindən biri iqtisadiyyatın sahələri üzrə qarşılıqlı tamamlanma strategiyasının apa-

rılmasıdır. Bu istiqamətdə Azərbaycanda və Türkiyədə hazır məhsul buraxılması üçün tələb olunan yarımfabrikat və detallar üzrə ixtisaslaşmanın aparılmasını xüsusi qeyd etmək olar. Hər iki ölkənin iqtisadiyyatının, xüsusən sənayesinin strukturu buna imkan verir.

Digər tərəfdən Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynaya biləcək xarici iqtisadi əlaqələrin formalarından biri də xarici investisiyalar üzrə əməkdaşlıqdır. Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi xarici əlaqələrin, eləcə də Azərbaycanın özünün inkişafında böyük əhəmiyyət daşıyır.

Azərbaycanda müasir şəraitdə xarici investisiya axınlarını stimullaşdıra biləcək amillərdən aşağıdakıları göstərmək lazımdır:

- siyasi sabitlik: Azərbaycan Respublikası müstəqillik qazanandan sonrakı dövr ərzində siyasi cəhətdən daha sabit vəziyyət son illər ərzində yaranmışdır. Bu da investorlarda qoyduqları kapitalın sonrakı taleyindən narahatçılığının azalmasına və sabaha inamla baxmalarına imkan verir;

- əlverişli qanunvericilik bazası;

- ucuz və keyfiyyətli işçi qüvvəsi: Keçmiş ittifaqda Azərbaycanın əldə etdiyi nailiyyətlərdən biri də güclü təhsil sisteminə və bunun nəticəsi olaraq yüksək ixtisaslı kadrlara malik olmasıdır. Müstəqilliyin ilk dövrlərində istehsalın səviyyəsinin sürətlə azalması, böhranın dərinləşməsi kütləvi işsizliyə səbəb olmuşdur ki, bunun da nəticəsində işsizlərin tərkibində yüksək ixtisaslı kadrların xüsusi çəkisi artmışdır;

- zəngin təbii ehtiyatların əlverişli iqtisadi-coğrafi mövqedə olması;

- istehsal olunmuş məhsulu reallaşdırmaq üçün bazarın mövcudluğu və qonşu bazarlara yaxınlıq.

Bütün bunları ümumiləşdirərək, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsini aşağıdakı istiqamətlərdə konkretləşdirmək məqsədəuyğun olardı:

- Azərbaycanın ixrac potensialının inkişafında xammal ixracından yarımfabrikat, daha sonra isə hazır məhsul istehsalına keçid prosesində türk sahibkarlarının

potensialından istifadə edilməsi;

- Türkiyədən ölkəyə cəlb olunan investisiyaların sahəvi strukturunun səmərələşdirilməsi;

- elmi-texniki əməkdaşlığın gücləndirilməsi, süni maneələrin aradan qaldırılması;

- daxili bazarın qorunmasında iqtisadi vasitələrə üstünlük verilməsi.

Azərbaycanın Türkiyə ilə iqtisadi əməkdaşlığı sahəsində potesial inkişaf sahələrindən biri də Azərbaycanın və Orta Asiya Respublikalarının karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasıdır.

Bir çox sahələrdə Azərbaycanla Türkiyə arasındakı əlaqələr yüksək səviyyədə inkişaf etməkdədir. Bu əlaqələrin gələcək inkişaf perspektivləri baxımından həyata keçirilməsi önəmli olan tədbirləri aşağıdakı qaydada sistemləşdirə bilərik:

1. İki ölkə arasında iqtisadi əlaqələrin daha yüksək səviyyədə və sürətlə inkişaf etdirilməsi üçün ikitərəfli investisiya əməkdaşlığını təşviq edən bir qurumun yaradılması məqsədəuyğundur;

2.Türkiyə, Azərbaycanda ehtiyac duyulan hər sahədəki məlumat, təşkilat, sərmayə və yetişmiş kadr ilə layihə hazırlama və həyata keçirmə mövzularında bütün imkanlarını səfərbər etməlidir.

3. Azərbaycanda özəl sektorun formalaşması və inkişafında Türkiyənin biznes strukturlarının, türk firma və şirkətlərinin yaxından iştirak etmələrini təmin etmək və onların Azərbaycan bazarında həm müştərək, həm də müstəqil şəkildə fəaliyyət göstərmələrinə şərait yaratmaq.

4. Azərbaycan ilə Türkiyə arasında geniş miqyaslı strateji iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində razılaşmaların əldə edilməsi və onların qısa müddətdə həyata keçirilməsinə nail olmaq.

5. Azərbaycanın dünya ölkələri, xüsusilə də inkişaf etmiş ölkələrlə, beynəlxalq təşkilatlar və qurulumlarla əlaqələrinin formalaşdırılması, inkişaf etdirilməsi, bu istqamətdə Azərbaycanın mənafeyinin qorunması və maraqlarının təmin edilməsi istiqamətində Türkiyənin aparıcı ölkə olaraq daha da yaxından və fəal şəkildə iştirak etməsi.

6. Bu çərçivədə, Türkiyənin 01.01.1996-cı il tarixindən etibarən Gömrük Birliyi çərçivəsində iştirak etdiyi Avropa Birliyi və digər qurumlarla əlaqələrindən Azərbaycanın müxtəlif problemlərinin həllində faydalanmasına nail olmaq.

7. Azərbaycanda sağlam və təkmil rəqabət mühitinin formalaşmasında Türk firma və şirkətlərinin yaxından iştirakı ilə yanaşı, onların ölkələrimiz arasındakı investisiya əməkdaşlığının inkişaf etdirilməsində daha da fəal iştirakına nail olmaq.

## 6.Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının reallaşma mexanizminin təkmilləşdirilməsi yolları

Dünya iqtisadiyyatı qarşılıqlı əlaqədə və asılılıqda olan və bir-birinə təsir göstərən milli təsərrüfatların məcmusundan ibarət olan bir sistemdir. Dünya iqtisadiyyatının subyektləri arasında yaranan beynəlxalq iqtisadi münasibətlər ölkədaxili iqtisadi münasibətlərdən bir çox cəhətdən fərqlənir. İstehsal amillərinin, əmtəə və xidmətlərin ölkədaxili hərəkətinə adətən heç bir məhdudiyyət qoyulmur. Bir ölkədən digər ölkəyə kapitalın hərəkətində isə hər bir ölkənin qanunvericiliyindən irəli qələn müxtəlif məhdudiyyətlər tətbiq oluna bilir.

Xarici investorların cəlb edilməsindəki mühüm və milli mənafe baxımından faydalı olan bir istiqaməti – idxalı əvəz edən məhsüllar istehsalının təşkilinə xüsüsi diqqət yetirilməlidir.

Xarici kapitalın yalnız mərkəzdə deyil, eləcə də regionlarda yayılmasına, iqtisadiyyatın diqər sahələrinə axınına hökümət səviyyəsində tədbirlərin görülməsi ön plana çəkilməlidir. Bu da özlüyündə bir tərəfdən həmin regionların inkişafına, əhalinin məşğulluq problemlərinin həll edilməsinə böyük köməklik edərdi.

Müasir şəraitdə xarici kapitalın cəlb edilməsi sahəsində konkret vəziyyəti öyrənmək, ölkədə sağlam investisiya mühitini təmin edən qanunverici bazanın yaradılması, xarici kapitalın cəlb olunması və birqə müəssisələrin yaradılması mexanizminin müasir tələblər səviyyəsində təşkilinə nail olmaq lazımdır.

Keçən on il ərzində Azərbaycana kapital qoymuş və ticarət fəaliyyəti ilə məşğul olan türk firmalarının bu müddətdə mövqelərini qiymətləndirdikdə onların

bu gün Azərbaycanda tək deyil, məhz bir sıra inkişaf etmiş ölkələrin firma və şirkətləri ilə güclü rəqabət şəraitində fəaliyyət göstərdikləri müəyyən olunur. Gələcək on il müddətində də bu rəqabətin qetdikcə artacağı aydın şəkildə görünür, məhz buna görə də, türk şirkətlərinin Azərbaycanda öz fəaliyyətlərini daha da gücləndirmələri olduqca vacibdir.

Hazırda iki ölkə arasında mövcüd siyasi əlaqələr ən əlverişli səviyyədədir. Azərbaycan ilə Türkiyə arasında iqtisadi münasibətlərin təhlilindən alınan nəticə və təklifər aşağıdakılardan ibarətdir.

Qeyd edək ki, iki ölkə arasında mövcud siyasi-iqtisadi əlaqələr yüksək inkişaf səviyyəsindədir. Azərbaycan ilə Türkiyə arasında iqtisadi münasibətlərin təhlilindən bu qənaətə gəlmək olar:

1. Xarici kapital digər ölkələrdə çıxarılan səhmlərin, istiqrazların və başqa qiymətli kaqızların xarici kapital bazarından satın alınması şəklində və ya xarici ölkələrdə zavod, fabrik və torpaq əldə edilməsi şəklində ola bilər.

2. Bazar iqtisadiyyatı və onun əsasını təşkil edən xüsusi mülkiyyətin inkişafı müvafiq hüquqi bazanın olmasını tələb edir. Bu proses vaxt və əmək sərfi tələb etməklə bərabər, reallığı əks etdirəcək və çevik struktur dəyişikliklərini və yenidən təşkilatlanmanı mümkün edəcək zəncirvari fəaliyyətdən ibarətdir. Lakin əlaqədar təşkilat və qurumların hüquqi baxımdan təcrübəsizliyi və zaman məhdudluğu şəraitində qəbul edilən qərarların iqtisadi inkişaf proseslərini lazımi səviyyədə tənzimləyə bilməməsi reallığını ortaya qoyur.

3. Gömrüklərdə anbar və əşyaların saxlanılması üçün saxlama kameralarının olması və yetərli səviyyəyə çıxarılmasına, Türkiyədə olduqu kimi gömrüklərdə komisyonçuluq (müşavirlik) müəssisəsinin olmasına çalışılması, qeyri-qanuni süründərməçilik və bunun nəticəsi olaraq ödənən əlavə yol verqiləri ilə yanaşı qanunauyğun ödəmələr olması, bütün ölkələrdən gömrük vergisinin alınması, gömrüksüz mal girişinin qarşısının alınması müəssisələri daha düzgün hala qoymaqda və əsasən də gələn malların rəqabət imkanını artırar.

4. Azərbaycanla Türkiyə arasında birbaşa sərhədlərin mövcüd olmaması, (Naxçıvan Müxtar Respüblikası istisna olmaqla) tarifli yük daşınmasının

aparılmaması və dəmiryolu əlaqəsinin olmaması səbəbindən, quru nəqliyyatı ilə həyata keçirilən daşımalar nəqliyyat xərclərinin artmasına səbəb olur.

5. Müştərək müəssisələrin yaradılması və fəaliyyət qöstərməsi əlverişli kapital mühitinin yaradılması ilə bağlı olub, xarici investorun fəaliyyətində mühüm rol oynayır.

6. Ölkə iqtisadiyyatının ixrac yönlü olması üçün dünya standartlarına cavab verən və rəqabətə davamlı məhsüllar istehsal edilməlidir. Bu məqsədlə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi zəruridir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:**

1. Bölek U.E. Bakü-Ceyhan Boru Hattı Projesinin Azerbaycan Türkiye Ekonomik İlişkilerine Etkisi "Bakı-Tbilisi-Ceyhan Neft Kəmərinin Beynəlxalq və Regional əhəmiyyəti" mövzusunda Beynəlxalq Konfrans materialları, Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası yanacaq və enerji Nazirliyi, Qafqaz Universiteti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Bakı, 2000, 0,18 ç.v.

2. Bölek U.E. (B.M. Bölek ilə birgə) Etik, Estetik ve Etnisite, Atatürk Alatoo Universiteti Academıc Studies, Bişkek, 0,37 ç.v.

3. Bölek U.E. (B.M. Bölek ilə birgə) Sovyetler Birliği Sonrası Hazar Denizinin Yeni Statüsü, Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Beynəlxalq Universiteti Nəsrəddini Tusinin 800 illik yubileyine həsr edilmiş Respublika elmi konferansı materialları, Bakı, 2001, 0, 37 ç.v.

4. Bölek U.E (B.M Bölek ilə birgə) Küreselleşmeyi Hızlandırıcı Faktörlerden, İnternet ve Elektronik Ticaret, Qafqaz Universiteti, "Globallaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və beynəlxalq münasibətlər" II. Beynəlxalq Konqres materialları, Bakı, 2007, 0,37 ç.v.

5. Bölek U.E (B.M. Bölek ilə birgə) Türkiye'de E: Ticaretin Gelişim Süreci ve Devlet Politikaları, Baki Dövlət Üniverstiteti, Azərbaycan Texniki Universiteti, Qafqaz Universiteti, "Elm və Təhsildə İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi" Beynəlxalq Konfrans materialları, Bakı, 2007, 0,37 ç.v.

6. Bölek U.E Türkiyə-Azərbaycan İnvestisiya Əməqdaşlığının Hər iki Ölkənin İqtisadi İnkişafına Təsiri, Naxçıvan Dövlət Üniverstiteti, "Bəynəlxalq İqtisadi Əlaqələrin İnkişafında Regionların Rolu və Əhəmiyəti", Beynəlxalq Elmi Konfrans materialları, Naxçıvan, 0,18 ç.v.

7. Bölek U.E (B.M.Bölek ilə birgə) Azerbaycan'da Kadın ve İş Hayatı, İstanbul Üniversitesi İktisat Fakültesi, Metodoloji ve Sosyoloji Araştırmalar Merkezi, İstanbul, 2008, 2.25 ç.v.

8. Bölek U.E. Türkiyə ilə Azərbaycan arasında inkişaf edən iqtisadi əməkdaşlıq sahəsində yatırımların yeri, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, 2/2010, Bakı, 0,24 ç.v.

9. Bölek U.E. (B.M. Bölek ilə birgə) Küreselleşmeyi Hızlandırıcı Faktörlerden, İnternet ve Elektronik Ticaret, Qafqaz Universiteti, "Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya", Beynəlxalq Elmi Konfrans materialları, Bakı, 2010, 0,31 ç.v.

10. Bölek U.E. Ekonomik İşbirliğinin Geliştirilmesi Amacıyla Türk Cumhuriyetlerindeki Üniversiteler Arasında "Bilgi Bankası" oluşturulmasının Gereği ve Önemi, Manisa-Celal Bayar Üniversitesi "Uluslararası Girişimcilik Kongresi" materialları, Manisa 2012, 0,68 ç.v.

11. Bölek U.E. Azerbaycan ve Türkiye Arasındaki Ekonomik İşbirliğinin Çağdaş Dünya Ekonomik Entegrasyonuna Etkileri, Azərbaycan Üniversiteti "Müasir Dünyada İnteqrasiya və Müqavimət Prosesləri" Beynəlxalq Elmi Nəzəri Konfrans Bakı, 2011, 0,43 ç.v.

12. Bölek U.E. Globalleşme Şartlarında Azerbaycan'ın Sosyal-İktisadi ve Ekolojik Gelişimine Türkiyeli İşadamlarının Azerbaycan'daki Yatırımlarının Katkıları, Lənkəran Dövlət Üniversiteti Lənkəran Regional Elmi Mərkəzi "Müasir Elmin Aktual Problemləri" Respublika Elmi Konfransı materialları, Lənkəran,2011, 0,12 ç.v.

13. Bölek B.M Bölgesel Sermaye Hareketlerinin Geliştirilmesi Amacıyla Türk Cumhuriyetlerindeki Üniversiteler Arasında "Bilgi Bankası" Oluşturulmasının Gereği ve Önemi, Erzurum- Atatürk Üniversitesi "Uluslararası Katılımlı Bölgesel İşbirliği ve Kalkınma Sempozyumu" materialları, Erzurum, 2012, 0,68 ç.v.

14. Bölek U.A (B.M. Bölek ilə birgə) Karşılıklı Yatırım İmkanlarının Arttırılması Amacıyla Türkiye-Azerbaycan üniversiteleri Arasında Bilgi Bankası Kurulmasının Gereği ve Önemi, Mevlana Üniversitesi "Uluslararası Ekonomi ve Hukuk Sempozyumu" Konya, 2013, 0,5 ç.v.

15. Bölek U.E (B.M. Bölek ilə birgə) Beynəlxalq Bazarlar Sistemində Formullaşmış Müasir İqtisadi Vəziyyət və Post-keçid Ölkələrinin Dünya Ticarət Sisteminə İnteqrasiyası, Mevlana Üniversitesi "Uluslararası Ekonomi ve Hukuk Sempozyumu" Konya, 2013, 0,43 ç.v.

16. Bölek U.E. Роль турецкого капитала В развитии зкономики Азербайджана, ıнвестцiï, практика та досвıд Науково-практичний журнал No 2 сiчень 2013, 0,31 ç.v.

**Uğur Arif Erdoğan oğlu Bölek**

**Проблемы Развития Инвестиционного Сотрудничества Между Азербайджаном и Турцией**

**Резюме**

Объем и структура инвестиции играет важную роль в развитии национальной экономики. Увеличение объема инвестиций и улучшение ее структуры оказывает позитивное влияние на рост экономики. Поток капитала не заменяет импортно-экспортных операций а завершает его. Поток иностранных инвестиций выступает в качестве способа привлечения новых знаний в области технологии, методы управления, и организации производства.

В данном научном исследование были разработаны инструменты для улучшения механизма формирования всестороннего анализа текущего состояния инвестиционного сотрудничества между Азербайджаном и Турцией, специфика и тенденции динамики развития этого сотрудничество, определение возможностей, путей для их повышения и реализаций.

В первой главе диссертации рассматривается экономическое развития и характеристики формирование двустороннего межправительственного экономического сотрудничества. В нем подчеркивается факторы привлечения международных инвестиций в национальную экономику, структуры и формы международных инвестиций, и совершенствование методов в соответствии с изменениями, происходящими в контексте международной торговли.

Вторая глава включает в себя оценку текущего состояния инвестиционного сотрудничества между Азербайджаном и Турцией, анализ динамики развития экономического сотрудничества, и подчеркивает оценку роли Турецкого капитала в развитие различных секторов Азербайджанской экономики.

Последняя глава рассматривает тенденции развития инвестиционного сотрудничества между Азербайджаном и Турцией, определяет перспективы развития и возможности возрастающей роли Турецкого капитала в экономике Азербайджана, и определяет механизм в целях улучшения реализации инвестиционного сотрудничества между Азербайджаном и Турцией.

В результате проведенных исследований были выевлены главные проблемы нынешнего уровня инвестиционного сотрудничества между Азербайджаном и Турцией и сделаны конкретный ряд предложений для их решения.

**Ugur Arif Erdogan oglu Bolek**

**Problems of the Development of Investment Cooperation between Azerbaijan and Turkey**

**Abstract**

The scope and the structure of the investment plays crucial role in the development of the national economy. Increased volume and improved structure of the investments have a positive impact on the economic growth. The flow of the capital does not replace import and export operations but rather completes it. The flow of the foreign investments acts as a method of attraction of new technologies, governance methods, and production.

This research, within the framework of a comprehensive analysis of the current state of investment cooperation between Azerbaijan and Turkey, has developed tools for the improvement of the mechanism of the investment cooperation progress, features and trends of the development dynamics, identification of the opportunities and its implementation mechanisms.

The first chapter of the dissertation examines formation of the bilateral and intergovernmental economic cooperation and its development characteristics. It highlights factors attracting international investments into national economy, structure and forms of the international investments, and improvement methods in accordance with the changes taking place in the context of the international trade.

Second chapter comprises assessment of the current state of the investment cooperation between Azerbaijan and Turkey, analysis of the dynamics of the economic cooperation development, and emphasizes the assessment of the role of Turkish capital in the development of different sectors of Azerbaijani economy.

Final chapter examines the trends in the development of investment cooperation between Azerbaijan and Turkey, identifies prospects of this cooperation development and opportunities of the increasing role of Turkish capital in the economy of Azerbaijan, and identifies the mechanism in order to improve the realization of investment cooperation between Azerbaijan and Turkey.

Hence, with reference to the integration of conducted research results, this study puts forward key elements of the problems of investment cooperation between Azerbaijan and Turkey, and offers variety of recommendations.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**БОЛЕК УГУР АРИФ ЭРДОГАН ОГЛЫ**

# ПРОБЛЕМЫ РАЗВИТИЯ ИНВЕСТИЦИОННОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

**Специальность: 5310.01- "Мировая экономика"**

**А В Т Р Е Ф Е Р А Т**

**диссертации по присуждению научной степени**
**доктора философии по экономике**

**БАКУ-2014**